*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır | 4 noyabr 2015-ci il | № 84 (2000) | Qiyməti 25 qəpik


NATO-nun Əfqanıstandakı Qətiyyətli Dəstək Missiyasında Azərbaycan Respublikasının iştirakının təmin edilməsi haqqında Azərbaycan Respublikasının Müdafiə naziri ilə NATO-nun Baş katibi arasında məktublar mübadiləsi formasında Sazişin təsdiq edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

NATO-nun Əfqanıstandakı Qətiyyətli Dəstək Missiyasında Azərbaycan Respublikasının iştirakının təmin edilməsi haqqında Azərbaycan Respublikasının Müdafiə naziri ilə NATO-nun Baş katibi arasında 2015-ci il yanvarın 12-də və aprelin 9-da imzalanmış məktublar mübadiləsi formasında Saziş təsdiq edilsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 30 sentyabr 2015-ci il.

"Kütləvi informasiya vasitələri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2015-ci il 20 oktyabr tarixli 1399-IVQD nömrəli Qanununun tətbiqi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Kütləvi informasiya vasitələri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2015-ci il 20 oktyabr tarixli 1399-IVQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə**qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Kütləvi informasiya vasitələri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Kütləvi informasiya vasitələri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 1 noyabr 2015-ci il.

## Müdafiə naziri Qazaxıstana rəsmi səfərə gedib

Noyabrın 3-də Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənovun başçılıq etdiyi nümayəndə heyəti Qazaxıstan Respublikasının Müdafiə naziri İmanqali Tasmaqambetovun dəvəti ilə Qazaxıstana rəsmi səfərə gedib.

Səfər çərçivəsində general-polkovnik Zakir Həsənovun Qazaxıstanın Müdafiə Nazirliyində görüşləri, hərbi təhsil müəssisələri və hərbi hissələrə ziyarətləri nəzərdə tutulub.

Görüşlər zamanı ölkələrimiz arasında hərbi, hərbi təhsil, hərbi-texniki sahələrdə əməkdaşlığın hazırkı vəziyyəti və perspektiv istiqamətlərinin nəzərdən keçirilməsi, müdafiə və təhlükəsizlik məsələlərinə dair fikir mübadiləsinin aparılması planlaşdırılır.

Səfər noyabrın 5-dək davam edəcək.

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**

<u>Azərbaycan Prezidenti İlham ƏLİYEV:</u>

# Bütün təzyiqlərə, bəzi hallarda təxribatlara baxmayaraq, öz yolumuzdan dönməyəcəyik

***<u>Son illər dünyanın ağır maliyyə böhranı ilə üzləşməsinə baxmayaraq, Azərbaycan sosial-iqtisadi sahədə öz uğurlarını inamla davam etdirir. Ölkəmizin sürətli iqtisadi inkişafı, dünya birliyində nüfuzunun getdikcə yüksəlməsi, dünyəvi dəyərlərin qorunmasına önəm verməsi və digər amillər müstəqil dövlətçiliyimizin daha da möhkəmlənməsinə zəmin yaratmaqla bərabər bizimlə əməkdaşlıq edən dövlətlərin də sayının artmasına səbəb olur.</u>***



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu yaxınlarda Nazirlər Kabinetinin 2015-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında çıxış edərək bildirib ki, Azərbaycan bundan sonra da bütün sahələrdə uğurlu inkişafını davam etdirəcəkdir. "Biz son illər ərzində aparılan islahatlar nəticəsində bu səviyyəyə qalxa bilmişik. Müstəqillik, müstəqil siyasət, milli maraqlar bizim üçün əsas vəzifədir, əsas məsələdir. Biz bundan sonra da Azərbaycanın seçimini qoruyacağıq. Bütün təzyiqlərə, bəzi hallarda təxribatlara baxmayaraq, öz yolumuzdan dönməyəcəyik. Sosial-iqtisadi göstəricilərimiz də bir daha təsdiq edir və sübut edir ki, biz düzgün yoldayıq".

Ancaq təəssüf hissi ilə qeyd etmək lazımdır ki, Azərbaycanın sürətli inkişafını gözü götürməyən, buna qısqanclıqla yanaşan qüvvələr ölkəmizin artan imicinə zərbə vurmaq üçün imkanlar axtarırlar. Bəzən nüfuzlu beynəlxalq qurumların tribunasından belə ölkəmizə qarşı qara piar kompaniyasından istifadə edilir. Bu, əlbəttə, Prezident İlham Əliyevin dəfələrlə qeyd etdiyi kimi, dünya siyasətində mövcud olan ikili standartlardan irəli gəlir. Əslində, ərazisinin 20 faizi 23 ildən artıqdır ki, işğal altında olan Azərbaycan Avropanın ikiüzlü siyasəti, ikili standartları ilə çoxdan tanışdır. Nüfuzlu beynəlxalq qurumlar Ermənistanın işğalçılıq siyasətini pisləsə də, bu barədə qətnamələr qəbul etsələr də, bütün bunlara məhəl qoyulmur. Bir daha xatırlatmaq istərdik ki, BMT-nin Təhlükəsizlik Şurası Ermənistanın silahlı qüvvələri tərəfindən işğal edilən qanuni ərazilərimizin qeyd-şərtsiz boşaldılması haqqında 4 qətnamə qəbul edib. Amma 22 ildir ki, bu qətnamələr icra olunmur. Əksinə, bu qurumlar işğalçı Ermənistanla əməkdaşlığa üstünlük verir və bu ölkəyə qarşı heç bir sanksiya tətbiq edilmir. Nüvə istehsalını dayandırmadığı təqdirdə İrana qarşı başda Amerika Birləşmiş Ştatları olmaqla neçə dövlət tərəfindən iqtisadi təzyiq göstərilirdi. Və ikrah doğuran haldır ki, işğalçıya "gözün üstə qaşın var", - deməyən qüvvələr bəzi hallarda Azərbaycana qarşı aqressiv münasibət göstərirlər. Hegemon dövlətlərin əlində alətə çevrilmiş bəzi mötəbər təşkilatların ölkəmizə təzyiq və təhdidləri belə təsəvvür yaradır ki, onlar işğalçı ilə işğala məruz qalanları ayıra bilmirlər.

Bu günlərdə Azərbaycan Prezidenti İlham Əliyev ATƏT-in Minsk Qrupunun həmsədrləri ilə görüşündə də Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin illərdən bəri davam etdiyini, həmçinin, bu münaqişənin regionda real təhlükə mənbəyi olduğunu bir daha diqqətə çatdırdı. "Ermənistan silahlı qüvvələri Azərbaycanın işğal olunmuş ərazilərindən dinc əhaliyə mütəmadi olaraq atəş açır, hətta toy məclislərində iştirak edən insanlar belə atəşə tutulur və nəticədə mülki əhalimiz arasında itkilər olur. Azərbaycan tərəfi bu cür təxribatlara cavab verdikdə isə bizi günahlandırırlar. Beynəlxalq ictimaiyyət və xüsusilə də vasitəçilər Ermənistan tərəfinin bu azğınlaşmış hərəkətlərinə adekvat reaksiya vermirlər".

Bəzən Azərbaycanı insan hüquqlarının pozulmasına görə günahlandıran beynəlxalq qurumların rəhbərləri yaxşı olardı ki, Ermənistanın diktator rejiminin rəhbərliyinə, prezident Sarkisyana irad tutsunlar ki, niyə Dağlıq Qarabağı Ermənistanın tərkib hissəsi adlandıraraq siyasi təxribatları davam etdirir? Dözülməz haldır ki, münaqişənin həllinə vasitəçi olan bir təşkilatın rəhbərləri də buna göz yumurlar və bütün bunlar xalqımızda haqlı narazılıq doğurur. Görünür, bir milyondan artıq azərbaycanlının ata-baba yurdundan didərgin salınması onları qəti narahat etmir. Azacıq da narahat olsaydılar, işğalçı dövlətin rəhbərliyinə siyasi təxribatlarına görə irad tutardılar.

Ölkəmizin hərbi potensialının artırılmasında Azərbaycan rəhbərliyi haqlıdır və xalqın iradəsindən çıxış edir. Dövlət başçısının da dönə-dönə qeyd etdiyi kimi, xalqımızın səbri tükənməz deyildir və Azərbaycan istənilən vasitəyə əl atmaqla öz ərazilərini işğaldan azad edəcəkdir. Müharibə başlayacağı təqdirdə, Müdafiə naziri general-polkovnik Zakir Həsənovun vurğuladığı kimi, Azərbaycan Silahlı Qüvvələri qısa vaxtda işğalçıları məhv edərək torpaqlarımızdan qovub çıxaracaqdır.

**"Azərbaycan Ordusu"**

<u>Azərbaycan XİN:</u> 

# həmsədrlərin bəyanatında atəş açan tərəfin adının qeyd edilməməsi təəssüf doğurur

***<u>Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi mətbuata açıqlama yayıb.</u>***

Nazirliyin mətbuat xidmətindən AZƏRTAC-a daxil olan açıqlamada bildirilir ki, oktyabrın 27-də əldə olunmuş ilkin razılığa əsasən, ATƏT-in Minsk Qrupunun həmsədrləri Ermənistan və Azərbaycan Silahlı Qüvvələrinin təmas xətti üzərindən ölkəmizin işğal olunmuş ərazilərindən Azərbaycan Ordusunun nəzarət etdiyi ərazilərə keçiblər. Məhz bu vaxt ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi və onun səhra zabitləri Tərtər və Ağdərə (Azərbaycan Respublikasının Tərtər rayonu) arasındakı yolda atəşkəsin monitorinqi üzrə təlim keçirirdilər. ATƏT heyətinin təhlükəsizliyini təmin etmək üçün tədbirlərin görülməsinə dair əvvəlcədən razılığın əldə olunmasına baxmayaraq, Ermənistan silahlı qüvvələri tərəfindən nəzarət edilən işğal olunmuş ərazilərdən Azərbaycan Respublikası Silahlı Qüvvələrinin mövqeləri istiqamətinə təkrar atəşlər açılıb. Bu insident ATƏT-in monitorinq heyətini Azərbaycan Respublikası Silahlı Qüvvələrinin mühafizəsinə sığınmağa vadar edib.

İnsident zamanı hadisə yerində olmuş Azərbaycan Respublikası Müdafiə Nazirliyinin nümayəndələrinin ifadələrinə görə, ATƏT heyəti atəşi dayandırmaq və atəş açmamaq üçün zəmanətləri yeniləmək məqsədilə qarşı tərəflə əlaqəyə çıxıb. Mənbənin və atəşin açıldığı istiqamətin aydın şəkildə bəlli olmasına baxmayaraq, həmsədrlərin 29 oktyabr tarixli bəyanatında bu insidentin müvafiq qaydada əks etdirilməməsi və atəşi pozan tərəfin adının qeyd olunmaması təəssüf doğurur. Amma bu, Ermənistan tərəfini törətdiyi bu və digər çoxsaylı təxribatlara görə məsuliyyətdən azad etmir.

Azərbaycan Respublikası bu insidentin münaqişənin həlli istiqamətində olan səylərin pozulmasına qarşı qəsdən törədilmiş cəhd olmasına dair həmsədrlərin qiymətləndirməsini bölüşür. Azərbaycan dəfələrlə beynəlxalq ictimaiyyətin diqqətinə çatdırıb ki, son illər ərzində və xüsusilə 2015-ci ilin yanvarından etibarən Ermənistan tərəfindən atəşkəsin pozulması və silahlı təxribatların törədilməsinin tezliyi daha da artıb və daha zorakı xarakter alaraq qadın və uşaqlar daxil olmaqla mülki Azərbaycan əhalisi arasında ölümlərə və xəsarətalma hallarına səbəb olub. 2015-ci ilin sentyabrında Nyu-Yorkda danışıqların növbəti mərhələsindən əvvəl Ermənistan silahlı qüvvələri tərəfindən xüsusilə qoşunların təmas xətti boyunca yaşayan mülki Azərbaycan əhalisini hədəfə almaqla, böyük kalibrli avtomatik silahlar, minaatanlar və artilleriya vasitələrindən istifadə edərək atəşkəsin pozulması dramatik şəkildə intensivləşdirilib.

Xatırlatmaq yerinə düşər ki, Fransa Respublikasının Prezidenti Fransua Olland tərəfindən Azərbaycan və Ermənistan prezidentlərinin 2014-cü il oktyabrın 27-də Parisdə təşkil olunmuş növbəti danışıqlarından sonra həmin il noyabrın 6-da Ermənistan silahlı qüvvələri Azərbaycanın işğal olunmuş ərazilərində genişmiqyaslı hərbi təlimlərə başlayıb. 2014-cü il noyabrın 12-də Ermənistan silahlı qüvvələrinin təlimlərdə iştirak edən iki "Mi-24" hücum helikopteri Azərbaycanın işğal olunmuş Ağdam rayonu yaxınlığında Azərbaycan Silahlı Qüvvələrinin yaxın ətrafına yan alıb və hücum manevrləri edib. Bu hücuma cavab olaraq helikopterlərdən biri vurulub.

Ermənistan tərəfinin davamlı və qəsdli təxribatları gərgin vəziyyət yaratmaq, münaqişənin siyasi həlli istiqamətində olan səyləri pozmaq və işğala əsaslanan status-kvonu möhkəmləndirmək kimi açıq məqsəd güdür.

Azərbaycan Respublikası bir daha Ermənistan tərəfindən təxribatlara son qoymasını, münaqişənin həlli prosesində konstruktiv mövqe nümayiş etdirməsini, beynəlxalq öhdəliklərinə əməl etməsini və Azərbaycan ərazilərindən öz qoşunlarını çıxarmasını tələb edir.

# Azərbaycan-Türkiyə dostluğu əbədi və sarsılmazdır

***Türkiyə Silahlı Qüvvələrinin Baş Qərargah rəisi, ordu generalı Hulusi Akarın "Azərbaycan ərazilərinin işğaldan azad olunması üçün hər şey ediləcək" sözlərindən təsirləndim.***

Hamımız yaxşı bilirik ki, Azərbaycan ilə Türkiyə arasında qardaşlıq və dostluq prinsiplərinə söykənən maddi-mədəni, iqtisadi əlaqələrin böyük tarixi keçmişi var. Ortaq kök, dil, din birliyi, oxşar mədəniyyət və adət-ənənələr bu əlaqələri şərtləndirən əsas amillərdir. Türk xalqının ulu öndəri Mustafa Kamal Paşa Atatürkün "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri isə bizim kədərimizdir" məşhur deyimi ilə xalqımızın ümummilli lideri Heydər Əliyevin "Biz bir millət, iki dövlətik" kimi tarixi fikri həm Türkiyədə, həm də bizdə iki ölkə arasındakı münasibətlərin tarixini, bu gününü və gələcək perspektivlərini özündə birləşdirən ən mükəmməl formul kimi qəbul edilməkdədir.

Azərbaycan Xalq Cümhuriyyətinin yarandığı tarixi dövrdə ölkə ərazisinin xeyli hissəsi, o cümlədən Bakı şəhəri erməni-bolşevik qüvvələrinin işğalı altında idi. Yaranmış mürəkkəb şəraitdən daim öz xeyrinə yararlanan ermənilər Zəngəzurda, Göyçədə, Qarabağda və başqa bölgələrdə azərbaycanlıların kütləvi soyqırımını həyata keçirirdilər. Daşnak-bolşevik qüvvələri 1918-ci ilin martın son 3 günü ərzində xalqımıza qarşı misli görünməmiş qətliam törətdilər. Bakıda, Şamaxıda, Qubada və başqa bölgələrdə 30 mindən çox azərbaycanlını amansızlıqla məhv etdilər. Bolşevik cildinə girmiş ermənilər Bakının strateji əhəmiyyətini başa düşür, necə olursa-olsun, onu əldə saxlamaq istəyirdilər. Amma Azərbaycanı, onun müstəqilliyini Bakısız təsəvvür etmək mümkün deyildi. Çünki Zəngəzurun, Göyçənin, Qarabağın və başqa bölgələrin azadlığa gedən yolu Bakıdan - ölkənin paytaxtından keçirdi. Belə bir şəraitdə I Dünya müharibəsində ağır itkilərə və daxili çəkişmələrə baxmayaraq, Osmanlı dövləti Azərbaycanla 1918-ci ilin iyununda bağladığı "Dostluq və əməkdaşlıq" müqaviləsinə əsasən, Azərbaycanın ərazi bütövlüyünü təmin etmək məqsədi ilə Nuru Paşanın rəhbərliyi altında hərbi qüvvələrini ölkəmizə göndərdi.

Nuru Paşanın komandanlığı ilə Türk Qafqaz İslam Ordusunun uzun mübarizə nəticəsində Bakını xilas etməsi Azərbaycan üçün önəmli dönüş nöqtəsi idi. Həmin dövrdə dünya xalqları öz ölkəsini təhlükə qarşısında qoyaraq Azərbaycan Xalq Cümhuriyyətinə köməyə gəlmiş müzəffər Türk Ordusunun qətiyyətli yürüşünü təəccüblə izlədi. Şanlı zəfərlə başa çatan bu yürüş qardaşlığın, birliyin şərəfli salnaməsinə çevrilərək tarixə qızıl hərflərlə yazıldı. Bu, qardaşın qardaşa köməyi, vəfa borcu idi. Şəhidlərimizin qanı ilə yazılan bu tarix xalqlarımız arasındakı qardaşlıq münasibətlərini daha da möhkəmləndirdi. Azərbaycan xalqının ümummilli liderinin də dəfələrlə dediyi kimi, türk ordusunun Azərbaycana, Bakıya gəlməsi, Azərbaycanı daşnakların təcavüzündən xilas etməsi hər bir azərbaycanlının qəlbində yaşayır. "Azərbaycan xalqı həmin ağır dövrdə turk xalqının ona göstərdiyi köməyi heç vaxt unutmayacaqdır".

Azərbaycan da qardaşını darda qoymamış, 1919-cu ildə başlanan Türk Qurtuluş Savaşı qələbə ilə sona çatanadək qardaş payı olaraq Türkiyəyə hər ay Bakıdan yüzlərlə vaqon neft və benzin, onlarla vaqon maye qaz göndərilmişdi. Çanaqqala meydan müharibəsində yüzlərlə həmyerlimiz qəhrəmancasına həlak olmuş və onların məzarları indi də Çanaqqala məzarlığındadır.

> Ümummilli lider Heydər ƏLİYEV:
> *Azərbaycan-Türkiyə dostluğu və qardaşlığı əbədidir, sarsılmazdır. Biz çalışacağıq ki, bu dostluğu, qardaşlığı gündən-günə möhkəmlədək və yüksəklərə qaldıraq.*



Azərbaycan Respublikası 1991-ci il oktyabrın 18-də müstəqilliyini bərpa etdikdən sonra həmin il noyabrın 9-da Türkiyə ölkəmizi rəsmən tanıyan ilk dövlət oldu. Bu, Azərbaycana qarşı beynəlxalq ictimaiyyətdə böyük etimad idi. Müstəqilliyin ilk illərində Türkiyə iki qardaş ölkə arasında qarşılıqlı faydalı əməkdaşlıq prinsiplərini əsas tutaraq dövlət quruculuğu yolunda respublikamızın səylərini daim dəstəkləməklə, dövlətçiliyimizin möhkəmlənməsinə yardım etmişdi.

Türkiyə dövləti beynəlxalq aləmdə Azərbaycanın fəal tərəfdaşı kimi çıxış edərək, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ədalətli həlli üçün Azərbaycanın göstərdiyi bütün səyləri həmişə müdafiə edir. Belə ki, hələ SSRİ-nin mövcud olduğu dövrdə Ermənistanın Azərbaycana qarşı əsassız ərazi iddiaları və hərbi təcavüzünün genişlənməsi zamanı Azərbaycan xalqının haqq səsi dünyaya məhz Türkiyə vasitəsi ilə çatdırıldı. Bu işdə Türkiyənin rəsmi şəxslərinin, eləcə də kütləvi informasiya vasitələrinin əhəmiyyətli rolu xüsusilə qeyd edilməlidir.

Ermənistanın hərbi təcavüzünün genişləndiyi bir dövrdə Azərbaycan ərazilərinin işğalı və xalqımıza qarşı təcavüz aktları Türkiyədə böyük həyəcanla qarşılanırdı. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Rusiyanın 366-cı motoatıcı alayının dəstəyilə erməni əsgərlərinin Xocalıya hücum etməsi və orada 600-dən çox azərbaycanlının tarixdə görünməmiş bir vəhşiliklə qətlə yetirilməsi ilə əlaqədar Türkiyə Böyük Millət Məclisinin iclasında Qarabağdakı gərginliyin daha da artmasına səbəb olan bu hadisələrin dünya ictimaiyyətinə çatdırılması haqqında yekdilliklə qərar qəbul edildi. Bundan əlavə, sonrakı illərdə də Xocalı faciəsinin dünya ictimaiyyətinə çatdırılmasında Türkiyə ictimaiyyətinin, kütləvi informasiya vasitələrinin mühüm rolu təqdirəlayiqdir. 1993-cü ilin aprelində Ermənistan qoşunları Azərbaycanın Kəlbəcər rayonunu işğal etdikdən və BMT-nin işğal olunmuş əraziləri tərk etməsi barədə qətnaməsini icra etmədikdən sonra Türkiyə Ermənistanla sərhədlərini bağlamış və bu işğal bitməyənə qədər sərhədləri açmayacağını beynəlxalq diplomatik səviyyədə elan etmişdir. Türkiyə ardıcıl olaraq bütün beynəlxalq təşkilatlarda Azərbaycanın Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş ərazilərinin azad olunmasını, bu məsələ ilə bağlı BMT-nin müvafiq qətnamələrinin həyata keçirilməsini tələb edir.

Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında hərbi əməkdaşlıq haqqında sazişə əsasən, bu ilin mart və aprelində iki dövlət arasında Konya şəhərində "TurAz Şahini - 2015" təlimləri və avqustun 22-dən sentyabrın 18-nə kimi ölkəmizdə "TurAz Qartalı - 2015" təlimləri yüksək səviyyədə baş tutdu. Azərbaycan-Türkiyə əməkdaşlığının uğurla davam etdirilməsi şərəfinə, ənənəyə uyğun olaraq, təlimin sonuncu günü qurbanlıq heyvan kəsilmişdi.

Tarix boyu Türkiyə bizə qardaş köməyini əsirgəmədiyi kimi, Azərbaycan daim onların haqq işlərini dəstəkləyir, erməni soyqırımına görə beynəlxalq aləmdə Türkiyənin günahlandırılmasını qətiyyətlə pisləyir.

Böyük dövlət xadimləri Heydər Əliyevin və Mustafa Kamal Paşanın ideallarına sədaqətli olan hər iki xalq bu qardaşlığı əsrlər boyu qoruyub saxlayacaq, bu yolda bütün sınaqlardan mətinliklə çıxacaqdır.

**Leytenant**
**Günay TAĞIYEVA,**
**"Azərbaycan Ordusu"**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Mina partlaması nəticəsində üç hərbi qulluqçumuz xəsarət alıb

Tovuz rayonu ərazisindəki qoşunların təmas xəttində mina partlaması nəticəsində Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 3 hərbi qulluqçusu xəsarət alıb.

İlkin ehtimala görə partlayışa müharibə dövründən qalan partlayıcı səbəb olub.

Hərbi qulluqçulara ilkin tibbi yardım göstərildikdən sonra onlar yerli hərbi tibb müəssisəsinə çatdırılıblar. Xəsarət alanlar hazırda ixtisaslı həkim nəzarəti altındadır və həyati təhlükə yoxdur.

Hadisə ilə əlaqədar cinayət işi başlanıb, Hərbi Prokurorluq tərəfindən araşdırma aparılır.

Müdafiə Nazirliyi cəbhədə baş verən hadisələrlə bağlı yalnız rəsmi məlumatlardan istifadə edilməsini kütləvi informasiya vasitələri nümayəndələrinə növbəti dəfə tövsiyə edir.

* * *

Oktyabrın 30-da MAZ markalı hərbi yük maşını dəmir yol ötürücüsünü keçərkən qatarla toqquşub. Qəza nəticəsində bir nəfər hərbi qulluqçu - avtomobilin sürücüsü əsgər Muxtarlı Məhəmməd Əhməd oğlu xəsarət alıb.

Əsgər M.Muxtarlı hərbi tibb müəssisəsinə yerləşdirilib.

Hadisə ilə əlaqədar cinayət işi başlanıb, Hərbi Prokurorluq tərəfindən araşdırma aparılır.

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***3 noyabr 2015-ci il.***

Müdafiə Nazirliyi bildirir ki, erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini ümumilikdə 112 dəfə pozub.

Ermənistan Respublikası İcevan rayonunun Berkaber kəndində yerləşən mövqelərdən Qazax rayonunun Qızılhacılı kəndində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Goranboy rayonunun Talış, Tapqaraqoyunlu, Gülüstan, Tərtər rayonunun Yarımca, Çiləbürt, Qızıloba, Ağdam rayonunun Şıxlar, Cəvahirli, Kəngərli, Sarıcalı, Novruzlu, Şuraabad, Qaraqaşlı, Mərzili, Yusifcanlı, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Horadiz, Qaraxanbəyli, Qorqan, Aşağı Seyidəhmədli, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin, Göygöl, Xocavənd, Füzuli və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

Azərbaycan Silahlı Qüvvələri əməliyyat şəraitini nəzərə alaraq, düşmənin atəş nöqtələrinə, mövqelərinə və səngərlərinə 114 dəfə atəş zərbəsi endirib.

*Təlim*

# "Silahdan atəş açanda dəqiq və cəld olmalısan"

- Müharibə şəraitində yaşadığımız bu günlərdə biz zabitlərin üzərinə böyük vəzifələr düşür, - deyə polkovnik Rəfael Abdullayev söhbətə başladı. - Başlıca vəzifələrimizdən biri də gənc əsgərlərə hərbi biliklər öyrətmək, döyüş vərdişləri aşılamaqdır. Üzərimizə düşən vəzifələri yerinə yetirmək üçün xidmətimizə məsuliyyətlə yanaşırıq. Gənc əsgərlərə dərs və məşğələ keçmək üçün ən bacarıqlı və peşəkar zabitlərimizi cəlb etmişik. İndi təlim meydanında gərgin məşqlər gedir, gənc əsgərlər hərbi bilikləri həvəslə öyrənir, döyüş vərdişlərinə yiyələnirlər. Əminəm ki, bir müddətdən sonra onlar da mükəmməl döyüşçü kimi torpaqlarımızın keşiyində ayıq-sayıq dayanacaqlar.

Hərbi hissənin təlim mərkəzinə yollandıq. Burada böyük canlanmanın olduğunu hiss etdik. Bir müddət əvvəl ordu sıralarına çağırılmış gənc əsgərlər zabitlərin nəzarəti altında dərs keçir, hərbi texnika və silahların sirlərinə yiyələnirdilər.

Leytenant Əli Musayev bacarıqlı zabitlərdəndir. Məşğələnin mövzusunu əsgərlərə izah edən zabit hərbi bilikləri onlara dərindən aşılamağa çalışırdı. Əsgərlər diqqətlə komandiri dinləyir, onun dediklərinə düzgün əməl etməyə səy göstərirdilər. Beləcə, səhər ertədən başlanan dərs və məşğələlər öz axarı ilə davam edirdi. Şəxsi heyət dərs prosesində peşəkarlıq nümayiş etdirirdi. Əsgərlər dərindən dərk edirlər ki, bu gün mənimsədikləri bilik və vərdişlər onlara sabah təlimlər və döyüşlər zamanı lazım olacaq. Buna görə də bütün diqqətlərini dərsin gedişinə yönəldiblər. Şəxsi heyəti hazırlıqlı görəndə ürəyimiz dağa döndü. Əmin olduq ki, belə hazırlıqlı əsgərləri qarşıda yalnız uğurlar gözləyir. İnanırsan ki, belə əsgərlər sabah döyüş meydanlarından qələbə ilə dönəcəklər.



- Əsgərlərimizin döyüş hazırlığını daim artırmağa çalışırıq, - deyir leytenant Əli Musayev. - Məqsəd və amalımıza çatmaq üçün dərs və məşğələlərin hər dəqiqəsindən səmərəli istifadə etməyə səy göstəririk. Xidmətimizə diqqətlə yanaşdığımıza görə istəklərimizə asanlıqla nail oluruq. Bu gün tam inamla deyə bilərəm ki, şəxsi heyətin döyüş hazırlığı yüksək səviyyədədir. Biz buna gərgin keçən dərs və məşğələlərdə, təlimlərdə nail olmuşuq. Şəxsi heyət istənilən anda sirlərini dərindən öyrəndikləri iriçaplı pulemyotdan dəqiq atəş açaraq döyüş tapşırıqlarını yerinə yetirməyə qadirdir. Qazanılan uğurlar bizi arxayınlaşdırmır. Çalışırıq ki, hər məşğələdə əsgərlər daha çox biliklər mənimsəsin, döyüş hazırlıqlarını artırsınlar. Şəxsi heyət dərs və məşğələlərdə həvəslə iştirak edir.

- İriçaplı pulemyotun sirlərini dərindən öyrənmişəm, - deyə əsgər Səxavət Məmmədov söhbətimizə qoşuldu. - Əvvəlcə hər şey adama çətin gəlir. Amma silahların sirlərini öyrəndikcə bütün çətinliklər bir göz qırpımında arxada qalır. Təcrübəli zabitlərin keçdikləri bir neçə məşğələdən sonra lazımi bilikləri öyrəndim, əsgər üçün vacib olan vərdişlərə yiyələndim. Bu silahdan atəş açarkən dəqiq və cəld olmalısan. İndi üzərimə düşən bütün tapşırıqları yerinə yetirməyə hazıram.

Sonda leytenant Əli Musayev söhbətinə davam edərək təlimlərdə fərqlənən əsgərlərdən Səxavət Məmmədov, Nurlan Nağıyev, Ümid Quluzadə, Nail Zeynalzadə və başqalarının adlarını çəkdi.

**Mayor**
**Vahid MƏHƏRRƏMOV,**
**"Azərbaycan Ordusu",**
**foto müəllifindir**

# Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində NATO-nun əməliyyat planlaşdırma kursu başlayıb





Noyabrın 2-də Azərbaycan Respublikası Müdafiə Nazirliyinin NATO ilə 2015-ci il üçün Fərdi Tərəfdaşlıq üzrə Əməkdaşlıq Proqramına əsasən, Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində NATO-nun Brunssumda yerləşən Birləşmiş Qüvvələr Komandanlığının Mobil Təlim Qrupu tərəfindən "NATO-nun əməliyyat planlaşdırma prosesi" mövzusunda təlim kursu başlayıb. Təlimə Müdafiə Nazirliyi, Hərbi Hava Qüvvələri, Hərbi Dəniz Qüvvələri və digər qoşun növlərindən olan zabitlər cəlb olunublar.

Kurs müddətində iştirakçılara alyansın hərbi strukturu və tərəfdaşlıq, əməliyyat-planlaşdırma prosesi, onun fazaları, strateji mühitin əməliyyat qiymətləndirilməsi, fəaliyyət tərzlərinin hazırlanması və müqayisə edilməsi, NATO-nun çevik qüvvələri və s. mövzular barədə məlumatlar veriləcək.

Təlim kursu noyabrın 6-da başa çatacaq.

**"Azərbaycan Ordusu"**

*Döyüş hazırlığı*

# Onlar döyüş əmri gözləyirlər

***Mənfur ermənilərə hər zaman qətiyyətli cavab verən ordumuzun bölmələri sırasında topçular da var. Belə ki, artilleriyaçılarımız yiyələndikləri sahə üzrə yetərincə bilik və bacarıqlara malik olduqlarını çöl-səhra təlimlərində layiqincə nümayiş etdirirlər.***

Bu yaxınlarda düşmənlə təmas xəttinin lap yaxınlığında yerləşən artilleriya bölməsində oldum. Burada düşmənə sarsıdıcı zərbələr vuran nümunəvi top heyəti ilə görüşdüm. Baş leytenant Elvin Əmiraslanovun komandiri olduğu bölmə həmişə olduğu kimi yenə mövqelərdə hazır vəziyyətdədir. Zabitlə qısa söhbətimizdə o, heyətlərin döyüş hazırlığından ürəkdolusu danışdı. Məlum oldu ki, top heyətlərinin hər biri istənilən döyüş əmrini yüksək səviyyədə yerinə yetirməyə qadirdir. Zabit heyət komandiri müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Ruzi Məcidovun xidmətindən razılığını bildirdi.



Ruzi bir ilə yaxındır ki, burada xidmət edir. O, İsmayıllı rayonundandır. Yenidən hərbi xidmətə gəlməkdə məqsədi Ali Baş Komandan əmr verərsə, erməni tapdağı altında qalan torpaqlarımızın azad edilməsi üçün döyüşlərə atılmaqdır. Məqsədi Vətənin bir övladı kimi onun müdafiəsində dayanmaqdır.

Baş leytenant E.Əmiraslanov deyir ki, Ruzi xidmətə gəldiyi qısa müddətdə verilən hər bir tapşırığı vicdanla yerinə yetirib.

Döyüş tapşırığının öhdəsindən yetərincə gələn heyət üzvlərindən biri də qusarlı Etibar Babayevdir. Etibar müddətli hərbi xidmətini başa vurmağa hazırlaşır. Ancaq əsgərlik dövründə artilleriya ixtisası üzrə yetərincə biliklərə yiyələnib. Artilleriyanın sirlərini mükəmməl bilir. Döyüş meydanında düşməni susdurmaq üçün sərrast atmağa hazırdır.

Digər heyət nəfəri Seymur Gülməliyev də bacarığı ilə sayılıb-seçilən topçulardandır. O da söhbətində bildirdi ki, top silahı ilə bağlı mükəmməl biliklərə yiyələnib. Hər dəfə təlimdə və döyüşdə uğurlar qazandıqca komandirlərinə minnətdar olduğunu bildirir.

Əslində, tabeliklərində olanlara mükəmməl vərdişlər aşılamaq komandirlərin vəzifəsidir. Əsgərlər də öz növbəsində yiyələndikləri ixtisası lazımınca öyrənsinlər və gələcəkdə heç bir çətinlik çəkmədən döyüş tapşırığını yerinə yetirə bilsinlər. Bunun nəticəsidir ki, bu gün həmin döyüşçülər hər tapşırığın öhdəsindən bacarıqla gəlir. Birlik komandiri tərəfindən həmin əsgərlər qiymətli hədiyyələrlə mükafatlandırılıblar. Amma heyət üzvləri bununla kifayətlənmək istəmirlər, əksinə, hər an döyüş əmri gözləyirlər ki, doğma torpaqlarımızı işğaldan azad etsinlər.

**Mayor**
**Bəxtiyar ƏLİYEV,**
**"Azərbaycan Ordusu"**




# 2000-ci sayın mübarək, "Azərbaycan Ordusu"

***<u>Bəzən adam özünə doğma, əziz bildiyi kollektivə elə bağlanır ki, haçansa başqa yerdə, bəlkə bundan da nüfuzlu bir təşkilatda çalışacağını heç ağlına da gətirmir. Yaşadığımız günlərin böyük hissəsini iş yerimizdə keçirməli oluruq. Bu mənada "Azərbaycan Ordusu" qəzetinin redaksiyası çoxlarımız üçün səmimi bir kollektivə çevrilib. İllər uzunu bir yerdə çalışdığımız həmkarlara üz-gözümüz o qədər alışıb ki. Haçansa övladlarımızın xeyir işlərində birgə şadlanmağı, deyib-gülməyi arzulayardıq, belə xoş günlərin həsrəti ilə yaşayardıq. Artıq həsrətimiz geridə qalır, övladlar böyüyüb yaşa dolur, onların toy-nişan sədasını eşidirik. Belə xoş anlarımıza "Azərbaycan Ordusu"nun kollektivi ilə şərik oluruq...</u>***

Ötən illərə boylanıram, qəzetin redaksiyasında işə qəbul olunduğum ilk günlər yadıma düşür. Qanlı-qadalı müharibə illəri idi, demək olar hər nömrəmizdə döyüş reportajları, barıt qoxulu yazılar dərc olunardı. Kimsə ezamiyyətə gedəndə fürsət tapıb hamı ilə bir-bir sağollaşardı, axı müharibənin içinə gedirsən, bu yolda qan-qada, ölüm-itim də ola bilərdi. Həmişə döyüşçülərimizin uğurlarını qəzetimizin səhifələrində oxuyanda çox sevinərdik. Yadımdadır, Goranboya ezamiyyətə getmişdim. Eşitdim ki, gecə yarısı bizimkilər strateji əhəmiyyətli bir yüksəkliyi ələ keçiriblər. Tez qısa bir məqalə hazırlayıb oradan redaksiyamıza göndərdim. Deyim ki, o vaxt indiki müasir şərait, geniş imkanlar yox idi.

"Azərbaycan Ordusu" Müdafiə Nazirliyinin rəsmi mətbu orqanı olaraq ötən illərdə ordu quruculuğunun yetərincə təbliğ olunmasında öz sözünü deyə bilib. Silahlı Qüvvələrimizin inkişafında baş verən bütün proseslər qəzetimizdə əksini tapıb, dövlətimizin ordu quruculuğu siyasətinin təbliğində zəhmətimiz az deyil. Bu yolda çətinliklərimiz də olub, bəzən çap işində problemlər də olub, texniki səbəblər üzündən oxucuların görüşünə vaxtında yetişməmişik. Amma son bir neçə ildə qəzetimiz müasir tələblər səviyyəsində çap edilir, əlbəttə, bu sahədə Müdafiə Nazirliyi rəhbərliyinin qayğısını xüsusi qeyd etmək istərdim.

Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə son illər ordumuzun hərbi gücünün artırılması istiqamətində görülən işlər hər bir ölkə vətəndaşı kimi, biz hərbi jurnalist kollektivini də sevindirməyə bilməz. "Azərbaycanda ordu quruculuğunu inkişaf etdirmək dövlətimizin siyasi kursunun əsas istiqamətlərindən biridir", - deyən ölkə başçısının diqqət və qayğısı hər addımda hiss edilir. Xüsusilə qeyd olunmalıdır ki, müasir dövrdə orduda aparılan önəmli islahatlar, həyata keçirilən irimiqyaslı quruculuq işləri, Müdafiə naziri general-polkovnik Zakir Həsənovun qeyd etdiyi kimi, Prezidentimizin, dövlətin və xalqın ordumuza verdiyi güclü dəstəyin bariz nümunəsidir. Məhz bu diqqət və qayğının nəticəsi olaraq Azərbaycan Silahlı Qüvvələri qısa zaman kəsiyində mühüm uğurlar qazanıb. Bir-birinin ardınca keçirilən irimiqyaslı təlimlər ölkəmizin hərbi gücünü, sözün həqiqi mənasında, dünyaya nümayiş etdirir. Bu gün təmas xəttində işğalçı dövlətin silahlı bölmələrinin istənilən təxribat cəhdinin qarşısını qətiyyətlə alan Azərbaycan əsgərinin hünər və şücaəti hər bir azərbaycanlıda iftixar və qürur doğurur. Xalqımız Azərbaycan Ordusuna inanır və güvənir. Xalqa bu inamı bəxş edən isə Ali Baş Komandanımızın rəhbərliyi ilə gündən-günə hərbi qüdrətini gücləndirən Silahlı Qüvvələrimizdir. Belə olan halda "Azərbaycan Ordusu"nun kollektivi də yüksək əhval-ruhiyyə ilə çalışır, ordumuzun, əsgər və zabitlərimizin uğurlarını böyük həvəslə təbliğ edir. Hər bir əməkdaşımızın sorağı cəbhə xəttindən, şaxtalı-çovğunlu səngərlərdən gəlir. Təmas xəttində atəşkəs pozulanda ordu hissələrimizin uğurlarından operativ informasiyalar, məqalələr, reportajlar hazırlayırıq. Yuxarıda qeyd etdiyim kimi, son vaxtlar operativ fəaliyyətimizin təmin olunmasında Müdafiə Nazirliyi rəhbərliyinin, mətbuatla iş aparan baş idarə və idarə rəislərinin köməyi danılmazdır. Bizə olan diqqət və qayğını hər an hiss edirik. Bunlar bizi yeni yaradıcılıq uğurlarına sövq edir, mülki, yaxud hərbi əməkdaşımız, fərqi yoxdur, hər birimiz göstərilən etimadı doğrultmağa çalışırıq.

Mətbuatın cəmiyyətdə rolu böyükdür, yəni ətrafda baş verən bütün hadisələrdə media xalqın tribunası olaraq öz rolunu yerinə yetirir. Bu gün Silahlı Qüvvələrimizin aynası olmaq etibarilə "Azərbaycan Ordusu" qəzeti də orduda gedən islahatları, şəxsi heyətin döyüş və mənəvi-psixoloji hazırlıqda qazandığı uğurlarını, hərbi qulluqçuların gündən-günə yaxşılaşan sosial şəraitini təbliğ edir və görülən işləri ictimaiyyətə çatdırır. Əminliklə qeyd etmək istərdim ki, "Azərbaycan Ordusu"nun hər bir əməkdaşı bundan sonra da üzərinə düşən vəzifələri məsuliyyətlə yerinə yetirəcəkdir.

2000-ci sayımızı qürurla qeyd etdiyimiz bu günlərdə ürəyimdən bir arzu keçir. Qoy tezliklə belə xəbərlərimiz ordumuzun gücü ilə işğaldan azad olunacaq əzəli torpaqlarımızdan eşidilsin.

**Polkovnik-leytenant
Arif PƏNAHOV,
"Azərbaycan Ordusu"**




# Şəhid zabitimiz doğma məktəbində anıldı

Bu günlərdə Bakının Nizami rayonundakı 129 saylı orta məktəbdə şəhid zabitimiz İlqar Verdiyevin anadan olmasının 40 illiyinə həsr olunmuş anım tədbiri keçirilib. Onun əziz xatirəsini yad etmək üçün məktəbin şagird və müəllim kollektivi, sinif yoldaşları, cəbhə dostları, müəllimləri və digər qonaqlar toplaşmışdılar. Şəhid zabitin əşyalarından ibarət sərgi də təşkil olunmuşdu. Ona məxsus əşyalar içərisində yaralananda qolunda olan qara rəngli saat və Türkiyədə məzun olarkən ona bağışlanan xəncər qonaqların diqqətini çəkirdi.

Anım mərasimi məktəbin həyətində şəhid məzunların xatirə kompleksinin ziyarəti ilə başladı. Əvvəlcə ümummilli lider Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda şəhid olan Vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad edildi, Dövlət himni səsləndirildi. İlqarın ibtidai sinif müəllimi Səriyyə Abbasova xatirələrini tədbir iştirakçıları ilə bölüşdü. Saçları vaxtsız ağarmış Səriyyə müəllim də şəhid anasıdır. "İlqarı sakit, tərbiyəli uşaq kimi xatırlayıram. Yaşıdlarından fərqli görünürdü. Bu fərqlilik onun dərs qavrayışında, təfəkküründə, hərəkətlərində lap çox hiss olunurdu. Daxili aləmi zəngin, maraq dairəsi geniş idi bu uşağın. Ona görə də diqqətimi çəkirdi. Hər zaman dərsinə hazırlıqlı gələrdi. Bir sözlə, mənim dərs dediyim uşaqlar içərisində ən sevimlisi idi. Allah bütün şəhidlərimizə rəhmət eləsin", - deyə S.Abbasova məktəblilərə müraciətlə sözünü bitirir: "Vətəni sevin, şəhidlərimizin qisasını alıb, torpaqlarımızı düşmən tapdağından azad edin..."

Tədbir iştirakçıları şəhid zabitin fənn müəllimləri olmuş Sevil Quliyevanın, Rəbiyyə Bayramovanın, sinif yoldaşı Gülzar İbrahimovanın, döyüşçü yoldaşı ehtiyatda olan polkovnik-leytenant Süleyman Salmanovun və başqalarının kövrək xatirələrini dinlədilər.

Övlad itkisinin ağrı-acısını qəlbində daşıyan İlqarın valideynləri Rəna xanım və Tapdıq müəllim övladlarının yubiley tədbirinə toplaşan hər kəsə təşəkkürlərini bildirdilər. Prezident İlham Əliyevin şəhid ailələrinə göstərdiyi diqqət və qayğıdan danışaraq İlqarın "Hərbi xidmətlərə görə" medalı ilə təltif edilməsinə görə Ali Baş Komandana dərin minnətdarlıqlarını ifadə etdilər.

1975-ci ildə Bakıda anadan olmuşdu. Səkkizinci sinfi bitirdikdən sonra C.Naxçıvanski adına Hərbi Liseyə qəbul olunmuşdu. Türkiyə Respublikasında oxuyan ilk ali təhsilli zabitlərimizdən idi. Mühəndis-istehkamçı ixtisasına mükəmməl yiyələnmişdi. 2008-ci ilin iyununda Goranboyda yerləşən hərbi hissəyə göndərilmişdi və bölük komandiri təyin olunmuşdu.

2012-ci il iyunun 9-dan 10-a keçən gecə döyüş şəraitində mina partlaması nəticəsində ağır yaralanan komandirini xilas etməyə tələsən İlqar da minaya tuş gəlir. Həkimlərin göstərdikləri səylərə baxmayaraq onu xilas etmək mümkün olmur. İlqar şəhidliyə qovuşur. Üç övladı Vətənə yadigar qalır.

Qısa, lakin mənalı ömrünü hərb işinə həsr etmiş, Vətənə məhəbbətini əməlində təsdiqləmiş İlqar Verdiyev haqqında yazılan "Son zəng, döyüş, təbəssüm" kitabının müəllifi vətənpərvər yazıçı-publisist Nəcibə İlkinin çıxışı sanki İlqarın simasında bütün şəhidlərə - ölməzlərə ünvanlanıb.

Qardaşı Azər Verdiyev çıxış edərək İlqarın son dəfə telefonda onunla danışdığını bildirdi. "Mərd, qorxmaz, cəsarətli oğulun qardaşı olmağımla qürur duyuram. O, təkcə mənim qardaşım yox, onu sevən yüzlərlə Azərlərin, Seymurların qardaşıdır". Məktəbin şəhidləri - İlqar, Ceyhun, Xəqani, Elçin, Araz, Mübariz, Famil Vətənimiz Azərbaycanın azadlığı, suverenliyi uğrunda canlarını qurban veriblər. Onların qəhrəmanlığı hər birimizə nümunədir.

Anım mərasimi məktəblilərin təşkil etdiyi ədəbi-bədii kompozisiya ilə başa çatdı.

**Lalə HÜSEYNOVA,
"Azərbaycan Ordusu"**

*"Açıq qapı" günündən təəssüratlar*

# "Düşmən tezliklə torpaqlarımızdan çıxarılacaq"

***<u>Çörəkləri dizləri üstündə olan nankor qonşularımız Qarabağ hadisələrini başlayanda cavanlarımız Vətən uğrunda döyüşə getdilər. O zaman gəncləri saxlayıb, "getmə" deyə bilməzdin. Onsuz da o cavanlar söz vermişdilərsə, gedəcəkdilər. Gedirdilər də.</u>***



Müharibə itkisiz olmur. Hər gün cəbhədən ağır xəbərlər alırdıq. Cavan-cavan oğullarımız düşmən gülləsinə tuş gəlir, şəhid olurdular. Oğlum Elbrus Qaçayev də rayonumuzdan olan könüllü dəstələrə yazılmışdı. O, Vətəni düşməndən qorumağa yollandı. Döyüşçü yoldaşları deyirdilər ki, qorxmaz, qoçaq oğlan olub. Neçə düşməni məhv etmişdi. Bütün şəhidləri öz övladım bilirəm. Allah onlara rəhmət eləsin. Mən həmişə deyirəm ki, bugünkü ordumuz o zaman olsaydı, düşmən qarşımızda tab gətirə bilməzdi, torpaqlarımız işğal olunmazdı. Camaatımız müharibə başlandığı gündən onu qoruyan, gecə-gündüz keşik çəkən əsgərin yanında olub. Bu gün xalqımızın əziz bayram günlərində, Novruzda, Yeni ildə hərbçilərimizin qonağı olur, əsgərlərimizə hədiyyələr aparırıq, onları sevindiririk. Bu günlərdə hərbi hissələrdə keçirilən "Açıq qapı" günü də hər birimizdə fərəh hissi doğurdu. Həqiqətən də, hərbi hissələrimizdə əsgərlər üçün yaradılan yüksək şərait ziyarətə gələn valideynlərdə övladları sarıdan tam arxayınlıq yaratdı. Əvvəllər hərbi hissələr məktəb, uşaq bağçası, kitabxana, keçmiş idarə və müəssisələrdə yerləşirdi. İndi isə hərbi hissələrimiz yenidən əsaslı təmir edilərək hərbçilərimizin istifadəsinə verilir.

Prezidentimiz İlham Əliyev ordumuza böyük diqqət göstərir. Allah ona cansağlığı versin. "Açıq qapı" günündə müasir silahları, texnikaları görəndə ürəyimiz dağa döndü. Sevindik ki, bizim ordumuz belə güclüdür. Mənim nəvəm - Eşqin Əlizadə də əsgərdir. O, ata-anasına bildirmişdi ki, bazar günü "Açıq qapı" günü keçiriləcək. Biz də tədbirdə iştirak etdik. Bizə verilən bu imkana görə qəzetiniz vasitəsilə Müdafiə Nazirliyinin rəhbərliyinə dərin minnətdarlığımı bildirirəm. Biz gördük ki, yeməkxanada xanımlar bir ana kimi əsgərlərimizə necə ürəklə xidmət göstərirlər. Onlar üçün milli xörəyimiz olan plov dəmləmişdilər. Öyrəndik ki, burada çalışan xanımların hamısı yerli sakinlərdir. Onlar övladlarımıza dadlı-tamlı xörəklər hazırlayırlar, əsgərlərimizə ana kimi qayğı göstərirlər.



Bu gün əsas məsələ ancaq torpaqlarımızdan düşmənləri çıxarmaq, doğma yurdlarından didərgin düşmüş insanları öz torpaqlarına qaytarmaqdır. Tezliklə ordumuz Prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə düşməni torpaqlarımızdan qovub çıxaracaqdır. Biz buna inanırıq.

**Maarifə QAÇAYEVA,
şəhid anası**

# "Ordumuzun inkişafı bizi sevindirir"

***<u>Ordu ilə cəmiyyət arasında əlaqələrin möhkəmləndirilməsi, hərbi qulluqçuların asudə vaxtının səmərəli təşkili məqsədi ilə "N" hərbi hissəsində də keçirilən "Açıq qapı" günü xoş anları ilə yadda qaldı.</u>***

- Bu tədbir ilk dəfə keçirilsə də, biz buna tam hazır idik, - deyə polkovnik-leytenant Əziz Dünyamalıyev bildirdi. - Həmin gün hərbi hissələrin qapısı hamının üzünə açılmışdı. Səhər ertədən hərbi hissənin nəzarət-buraxılış məntəqəsinin qarşısında böyük canlanma var idi. Övladlarına baş çəkməyə gələn valideynlərin üz-gözündən xoşbəxtlik yağırdı. Tədbirə təkcə valideynlər deyil, ictimaiyyət nümayəndələri də qatılmışdı.

Zabit Eldəniz Daşdəmirov əvvəlcə qonaqları hərbi hissənin ərazisi ilə tanış etdi. Sonra hərbi qulluqçulara verilən ərzaq-əşya məhsulları nümayiş etdirildi. Əsgərlərin qida rasionundakı dəyişikliklər, yeni silah və hərbi texnikalar barədə geniş məlumat verildi.



Sonra qonaqlar əsgər yataqxanasına və yeməkxanaya baş çəkdilər, həmçinin, şəxsi heyət üçün yaradılmış məişət şəraiti ilə yaxından tanış oldular. Hiss olunurdu ki, valideynlər övladları üçün yaradılmış şəraitdən razıdırlar.

Söhbət zamanı əsgər anası Arzu Əsgərova bildirdi ki, oğlum Rüfət bir aya yaxındır burada xidmət edir. "Açıq qapı" tədbirinin keçirilməsi bizim ürəyimizcə oldu. Övladlarımızın xidmət etdiyi hərbi hissə ilə yaxından tanış olmaq yerinə düşdü. Əsgərlər üçün yaradılan şərait çox yaxşıdır. Ürəyimiz açıldı, könlümüz sevindi. Övladlarımıza böyük diqqət və qayğı göstərildiyinə görə Prezidentimiz, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə, Müdafiə naziri general-polkovnik Zakir Həsənova minnətdarlığımı bildirirəm. Ordumuzun inkişafı göz qabağındadır, hamımız sevinirik, qürur duyuruq.

**Mayor
Vahid MƏHƏRRƏMOV,
"Azərbaycan Ordusu"**

# Xəbərlər: hadisələr, faktlar

## Rosaviasiya: A321 təyyarəsi havada çox böyük hündürlükdə parçalanıb



Qəza yerindəki qalıqların xarakteri A321 təyyarəsinin havada çox böyük hündürlükdə dağıldığına dəlalət edir. Bunu "Rossiya 24" telekanalının efirində Rosaviasiyanın rəhbəri Aleksandr Neradko deyib. O qeyd edib ki, hadisə yeri təxminən 20 kvadratkilometr sahəni əhatə edir. Təyyarənin elementləri 8 kilometrə yaxın uzunluğu və 4 kilometrə yaxın eni olan əraziyə elleps formasında səpələnib. Bütün bunlar təyyarənin çox böyük hündürlükdə dağılmasından xəbər verir. Qəzanın səbəblərinə gəlincə, ekspertlər bunun yalnız "qara qutu"nun şifrəsi açıldıqdan sonra bəlli olacağını bildirirlər. Xatırladaq ki, oktyabrın 31-də Şarm-əl-Şeyx - Sankt-Peterburq reysi ilə uçan Rusiyaya məxsus A321 təyyarəsi havaya qalxdıqdan 23 dəqiqə sonra qəzaya uğrayıb. Təyyarənin göyərtəsindəki 217 sərnişin və 7 ekipaj üzvünün hamısı həlak olub.

## Türkiyə: Ədalət və İnkişaf Partiyası seçki zəfərini qeyd edir



Türkiyə Böyük Millət Məclisinə növbədənkənar seçkilərdə səslərin 97 faizi sayıldıqdan sonra AKP 49,39 faizlə irəlidə gedir. Beləliklə, bu partiya yeni parlamentdə 316 deputat yeri qazanaraq təkbaşına hökumət qurmaq imkanı əldə edib.

Cümhuriyyət Xalq Partiyası səslərin (CHP) 25,3 faizini (134 yer), Millətçi Hərəkat Partiyası (MHP) səslərin 11,9 faizini (41 yer), Xalqların Demokratik Partiyası (HDP) isə səslərin 10,5 faizini (59 yer) toplayıb. Ali Seçki Komissiyasının məlumatına görə, ölkə üzrə seçici fəallığı 85 faizdən yuxarı olub.

## Azərbaycanın uğurla təmsil olunduğu "Milan Expo-2015" ümumdünya sərgisinə yekun vurulub



Dünyanın 140 ölkəsinin, o cümlədən Azərbaycanın təmsil olunduğu "Milan Expo-2015" ümumdünya sərgisinə oktyabrın 31-də yekun vurulub. Milanda açıq hava teatrında keçirilmiş bağlanış mərasimində İtaliyanın Prezidenti Sercio Matarella çıxış edərək tədbirin gözləntiləri artıqlaması ilə doğrultduğunu, 21 milyon 500 min ziyarətçinin möhtəşəm nəticə olduğunu deyib. Avropanın mərkəzində kiçik bir dünyanın qurulduğu "Milan Expo-2015" ümumdünya sərgisinə 60-dan artıq dövlət başçısı, 200-dən çox nazir və bir sıra ölkələrin dövlət rəsmiləri qatılıblar. "Planetimizi qidalandıraq, həyat üçün enerji qazanaq" devizi ilə keçirilən sərgidə iştirakçı ölkələrdən yalnız 54-ü, o cümlədən Azərbaycan öz milli pavilyonunu təqdim edib. Ölkəmiz "Azərbaycan Biomüxtəliflik xəzinəsi" pavilyonu ilə uğurla təmsil olunub.

Qeyd edək ki, beş ildən bir keçirilən EXPO sərgiləri ziyarətçi sayına görə olimpiya oyunları və futbol üzrə dünya çempionatlarından sonra üçüncü böyük beynəlxalq tədbir hesab olunur. İlk EXPO sərgisi 1851-ci ildə Londonda keçirilib.

## Hollandiya alimləri "sintetik mal əti"ndən kotlet hazırlayıblar



Hollandiyanın Maastrixt Universitetinin alimləri eksperiment çərçivəsində "sintetik mal əti"ndən kotlet hazırlayıblar. "Sınaq şüşəsi"ndən çıxmış ət mağazalarda çox tezliklə görünəcək. Süni ət hazırlanmasına dair ilk təcrübə iki il əvvəl aparılıb. İndi alimlər süni ət almağın daha əlyetər yollarını axtarırlar. Ətin dad keyfiyyəti üzərində də iş aparılır. Qeyd edək ki, istehsal çox baha başa gəlib. Bir tikə ətin hazırlanması üçün 300 mindən çox avro xərclənib. Niderland alimləri güman edirlər ki, ilk münasib qiymətli süni ət supermarketlərin piştaxtalarında təxminən beş ildən sonra görünəcək.

## Çində 37 dollarlıq iPhone 6s klonu hazırlayıblar



Çində "Apple" korporasiyasının iPhone 6s flaqmanın ucuz analoqu hazırlanılıb. Qurğunun qiyməti orijinaldan 15 dəfə ucuzdur. Qurğular xarici görünüşdən oxşasalar da, "içi" çox fərqlidir. Çin istehsalçıları bunu "Apple"in yeniliklərinin təqdimatından ay yarımdan sonra yaradıblar. Çin modelinin nümayiş olunduğu videoçarx artıq oktyabrın 25-də "YouTube" portalında yerləşdirilib. İstehsalçılar əmin edirlər ki, İPhone 6s klonu alıcılara cəmi 37 dollara başa gələcək. Orijinal smartfonun qiyməti isə ikiillik müqavilə ilə 199 dollardan başlayır. Qurğular xarici görünüşdən həqiqətən bənzəyirlər. Məsələn, klonun displeyinin diaqonalı orijinala uyğundur, aparat üç rəngdə - gümüşü, qızılı və çəhrayı rəngdə təqdim olunub. Lakin oxşarlıq elə bununla da bitir. Klon aparatında ekran 960x540, əsl iPhone 6s-də 1334x750 təşkil edir. "Apple" məhsulun analoqu Spreadtrum SC773 prosessorla təchiz edilib, yalnız 512 Mb operativ və 4 Gb əsas quraşdırılmış yaddaşı var. Lakin "alma" flaqmanında minimum 16 Gb (128Hb) yaddaş həcmi var.

## Pakistanda qatarın partladılması nəticəsində üç nəfər həlak olub



Pakistan mətbuatının yaydığı məlumata görə, noyabrın 1-də səhər saatlarında Bəlucistan əyalətində qatarın partladılması nəticəsində, ilkin məlumata görə, üç nəfər həlak olub, yeddi nəfər yaralanıb.

Məlumatda deyilir ki, partlayışın təsirindən qatarın birinci vaqonu relsdən çıxıb. Terror aktına görə məsuliyyəti hələlik heç bir qruplaşma üzərinə götürməyib.

**AZƏRTAC-ın
materialları əsasında**

# Qəhrəmana həsr edilmiş yarışlar



**17 ildir ki, ordu idmançıları birinciliklərdə qələbə uğrunda mübarizə aparırlar. Ordumuzda ötən müddət ərzində əsl idman ənənəsi formalaşıb və getdikcə daha da zənginləşməkdədir. Bu il keçirilən birinciliklər həm də onunla əlamətdardır ki, Silahlı Qüvvələrimizdə, ordu idmanı tarixində önəmli xidmətləri olmuş, Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsində şücaət göstərmiş Vətən oğullarının xatirəsi yarışlarda ehtiramla anılır. Oktyabrın son günlərində Silahlı Qüvvələrin yunan-Roma və sərbəst güləş birincilikləri xalqımızın cəsur oğlu, Azərbaycanın Milli Qəhrəmanı Əliyar Əliyevin xatirəsinə həsr edilmişdi.**

Qubadlı rayonunun Qəziyan kəndində anadan olmuş Əliyar Əliyev Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutunu bitirmişdi. Yunan-Roma güləşi üzrə dəfələrlə respublika, ümumittifaq və beynəlxalq yarışlarında uğurlar qazanmış Azərbaycan pəhləvanı ömrünü bütövlükdə idmana həsr etmişdi. Böyük idmanı tərk etdikdən sonra doğma Qubadlıda "Məhsul" idman cəmiyyətində məşqçilik fəaliyyətinə başlayır. Qısa zamanda məşqçi kimi öz sözünü deməyi bacarmış Əliyar Əliyevin yetirmələrinin soraǧı təkcə Azərbaycanın deyil, keçmiş SSRİ-nin mötəbər idman yarışlarından eşidilməyə başlayır. Təkcə onu demək kifayətdir ki, qəziyanlı məşqçinin yetirmələrindən 8 nəfəri respublika və SSRİ çempionu olub, 1 nəfər Olimpiya yığma komandasına üzv seçilib, 1 dünya çempionu, 10-dan çox idman ustası, beynəlxalq turnirlərin qalibləri ondan güləşin sirlərini öyrənib.

Ermənistanın qədim və əzəli torpaqlarımıza göz dikməsi və Dağlıq Qarabağı Azərbaycandan qoparmaq üçün elan edilməmiş müharibəyə başlaması Əliyar Əliyevi də öz sevimli işindən ayırdı.

Məlum olduğu kimi, Qubadlı rayonu Ermənistanla Dağlıq Qarabağın arasında yerləşdiyindən erməni yaraqlılarının təxribatlarıyla daha çox üz-üzə qalırdı. O zaman ermənilər dəfələrlə Qubadlı sakinlərinə qarşı terror əməlləri törətmiş, insanların dinc həyat ritmini pozmuşdular. Sərhəd kəndlərimizi və onların dinc sakinlərini düşmənin hücumlarından qorumaq üçün Qubadlının ilk silaha sarılan oğullarının önündə Əliyar Əliyev də vardı. Hələ 1988-ci ildən o, rayonun Ermənistanla həmsərhəd kəndlərinin müdafiəsində iştirak edirdi.

Ərazi özünümüdafiə taborunun komandiri kimi qəziyanlı məşqçi bütün regionda cəsurluğu və qorxmazlığı ilə ad çıxardı. Ətrafında öz yetirmələrilə yanaşı, Qubadlının qorxmaz oğullarını toplamış tabor komandiri dəfələrlə düşmənə qarşı əks həmlələr edərək ona ağır zərbələr vurmuşdu.

Əliyar Əliyevin iştirakı ilə həyata keçirilən ən uğurlu əməliyyatlardan biri ermənilər tərəfindən işğal edilmiş Laçın rayonunun və kəndlərinin düşməndən azad edilməsi, "Laçın dəhlizi"nin qapadılması ilə bağlı idi. 1992-ci ilin sentyabrında xüsusi hücum əməliyyatı hazırlanmışdı. Oktyabrın 2-də düşmən mövqelərinə şığıyanların önündə əlində pulemyot cəsur tabor komandiri gedirdi. Düşmən vahimə içərisində qaçırdı.

1992-ci il oktyabrın 3-də günortadan keçmiş bölmələrimiz Laçının iki kilometrliyinə çatmışdı.

Yuxarı komandanlıq tərəfindən Fətəlipəyə kəndinin yaxınlığındakı Şurumbaşı yüksəkliyində dayanıb möhkəmlənmək tapşırığı qoyulmuşdu. Tabor komandiri Əliyar Əliyev sürücüsü Əlisadət Ağayevlə ərazinin kəşfiyyatını aparmaq qərarına gəldi. Bir qədər irəliyə gedərkən onlar qəflətən məkrli düşmənin güllə yağışına məruz qaldılar. Azərbaycanın qəhrəman oğlu ermənilərin pusqusuna düşmüşdü. Bu, ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülmüş Əliyar Əliyevin son döyüşü oldu...

Birinciliklərin açılış və bağlanış mərasimləri Təlim və Tədris Mərkəzinin idman zalında nümunəvi orkestrin müşayiətilə təntənəli şəkildə təşkil edilmişdi. Birinciliyin açılışında Müdafiə Nazirliyi fiziki hazırlıq və idman şöbəsinin rəisi, Milli Qəhrəman Əliyar Əliyevin silahdaşı, polkovnik Sadiq Paşayev Müdafiə naziri general-polkovnik Zakir Həsənovun adından idmançıları birinciliklərin başlanması münasibətilə təbrik etmiş, onlara yarışlarda uğurlar arzulamışdı.



Yarışlarda ümumilikdə 14 komanda və 200-ə yaxın idmançı Silahlı Qüvvələrimizin müxtəlif hərbi hissələrini təmsil edirdi. Birincilikləri peşəkar mütəxəssislər - beynəlxalq dərəcəli hakim Hüseynağa Əhmədovun rəhbərliyilə Azərbaycan Güləş Federasiyasının Hakimlər Kollegiyasının hakimləri idarə edirdilər.

Güləş döşəyinin üzərinə öncə yunan-Roma güləşçiləri çıxdılar. Bir gün öncə isə mandat komissiyası öz işini görmüş, mübarizə aparacaq idmançıların çəkiləri müəyyənləşdirilmişdi.

İki gün ərzində güləşçilər ən güclüləri müəyyən etmək üçün mübarizə apardılar və 7 çəkidə qalibləri müəyyən etdilər.

Fərdi yarışlarda 55 kiloqramda Mirabbas Tağıyev (Şəmkir) birinci, Nurlan Yusifli (Beyləqan) ikinci, Vüsal Məmmədov (Bərdə) və Ələkbər İsazadə (TTM) üçüncü yeri tutdular.

60 kiloqramda Nemət Hacıyev (Bərdə) birinci, Kamal Ələsgərov (Beyləqan) ikinci, Amid Səfiyev (Piyadalar) və Elnur Novruzov (Şəmkir) üçüncü oldular.

66 kq çəki dərəcəsində Şamo Süleymanov (Bərdə), Rövşən Nuruzadə (HHQ), Elçin Məmmədov (Şəmkir) və Cavidan Əlizadə (Beyləqan) birinciliyin medallarını qazandılar.

74 kiloqramda medallar dəsti Niyazi Alıyev (HHQ), Elşad Şahmuradov (Beyləqan), Pərviz Nərimanov (Şəmkir) və Şahin Dadaşova (Bərdə) nəsib oldu.

Toğrul Yunisli (Şəmkir), Vüsal Əliyev (HHQ), Rahim Məmmədov (Beyləqan) və Tehran İmanlı (Bərdə) 84 kiloqramda bütün rəqiblərindən üstün oldular.

96 kiloqramda Soltan İsmayılov (Şəmkir), Turcay Vəlizadə (Piyadalar), Təhmasib Ağayev (Bərdə) və Rəşad Mustafayev (Beyləqan) mükafatalayiq yerləri tutdular.

Nəhayət, ən ağır çəkidə (120 kq) Ayaz Nəsibli (Şəmkir), Nizami Ağayev (Bərdə), Pərviz Qasımov (HHQ) və Ruslan Mirzəliyev (Beyləqan) birinciliyin medallarını qazandılar.

Komanda hesabında ən çox xal toplamış Şəmkir komandası birinci, Bərdə komandası ikinci, Beyləqan komandası isə üçüncü yeri tutdular. Kiçik komandalar arasında isə Təlim və Tədris Mərkəzi hamıdan yaxşı nəticə göstərdi.

Silahlı Qüvvələr birinciliklərinin növbəti iki günündə isə sərbəst güləşçilər birinciliyin mükafatları uğrunda mübarizə apardılar.



55 kiloqramda Sənan Hüseynquliyev (Şəmkir) birinci, Paşa Paşayev (Bərdə) ikinci, Vüqar Quliyev (Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi) və Nicat Musayev (HHQ) üçüncü yerləri tutdular.

60 kiloqramda Nihad Bağırzadə (HHQ), Coşqun Məmmədov (Beyləqan), Kənan Qasımov (Topçular) və Mehran Rüstəmov (Bərdə) birinciliyin medallarına layiq görüldülər.

Növbəti medallar dəstini 66 kiloqramda Rəşad Əhmədov (Şəmkir), Vüsal Nəzərov (HHQ), Ramil Allahverdiyev (Beyləqan) və Bəhram Mürşüdov (HDQ) qazandılar.

74 kiloqramda Hafiz Xələfov (TTM), Vüqar Mehdiyev (Şəmkir), Elməddin Zəkiyev (Mühafizəçilər) və Cavid Məmmədov (HHQ) bütün rəqiblərindən üstün oldular.

Tərlan Əliyev (Bərdə), Afiq Əliyev (Beyləqan), Sarvan Məmmədov (HHQ) və Yasin Sayadov (Şəmkir) 84 kiloqramda medallar dəstinə sahib çıxdılar.

96 kiloqramda Turqay Məmmədov (Şəmkir) birinci, Qadir Əhmədov (Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi) ikinci, Elnur Mirzəyev (HHQ) və Tərlan Əlicanov (Beyləqan) isə üçüncü yerləri tutdular.

Ən ağır çəki dərəcəsində İlkin Babayev (Bərdə) birinciliyin qızıl, Emin Osmanov (HHQ) gümüş, Ruslan Kərimov (Şəmkir) və Amil Savadov (Mühafizəçilər) bürünc medallara layiq görüldülər.

Ümumi nəticəyə əsasən, Şəmkir komandası ( komandanın rəhbəri mayor Qoşqar Əliyev) birinci, Hərbi Hava Qüvvələrinin komandası isə (komandanın rəhbəri polkovnik-leytenant Afiq Əliyev) ikinci, Bərdə komandası (komandanın rəhbəri mayor Hamlet Nəbiyev) üçüncü yeri tutdular. Kiçik komandalar arasında Təlim və Tədris Mərkəzi bütün rəqiblərindən üstün oldu.

Onu da deyim ki, adətən böyük hərbi hissələrdən daha güclü idmançılar Silahlı Qüvvələr birinciliklərində qalib gəlirlər. Amma kiçik hərbi hissələri təmsil edən güləşçilərin arasında da yüksək potensiala malik idmançılar yarışırdılar. Onlardan birincilikdə yüksək yerləri tutanlar da oldu.

Silahlı Qüvvələr birinciliklərinin yekununda bağlanış mərasimi keçirildi, polkovnik Sadiq Paşayev birinciliklərin nəticələrini dəyərləndirdi və idmançılara gələcək xidmətlərində uğurlar arzuladı. Sonra qalib idmançı, komandalar medal, fəxri fərman və diplomlarla mükafatlandırıldılar. Birinci yeri tutmuş komandalara keçici kuboklar təqdim edildi.

**Əbülfət QASIMOV,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**kiçik çavuş**
**Namiq PƏNAHOVUNDUR**

## Redaksiyanın poçtundan

# Mən əsgər anasıyam



**Ana adı nə qədər şərəfli olsa da, "əsgər anası" adını daşımaq ondan daha şərəflidir. Bu adı eşitdikcə, ananın qəlbi qürurla çırpınır. Oğlunun da əsgər olduğunu düşünəndə özünü xoşbəxt sayır...**

### Əsgər anası

Oğul, sən əsgər oldun
Dəyişdi birdən-birə
Həyatımın mənası,
Hamı mənə hörmətlə
Deyir: - "Əsgər anası!"
Sevinirəm ki, oğlum
Vətənə çəpər gəlib,
O gündən gözümə nur,
Dizimə təpər gəlib.

Artan sayına qurban!
Mətin, polad gücünün
Oğul payına qurban!
Mən anayam! Oğlumu
Göndərmişəm Vətənin
Harayına havadar,
Ana kimi mənim də,
Öyünməyə haqqım var!

**Mirvari VERDİYEVA,**
**əsgər anası,**
**fəlsəfə doktoru**

# İdman

### Azərbaycanın və Gürcüstanın birgə ev sahibliyi edəcəyi Avropa çempionatının püşkü atılıb



Azərbaycanın və Gürcüstanın 2017-ci ildə birgə ev sahibliyi edəcəyi qadın voleybolçular arasında Avropa çempionatının oktyabrın 31-də püşkü atılıb. Lüksemburqda Avropa çempionatının seçmə mərhələsinin püşkatma mərasimi təşkil olunub. Meydan sahibi olan Azərbaycan və Gürcüstan, həmçinin Rusiya, Hollandiya, Serbiya, Türkiyə və Almaniya yığmalarının vəsiqə qazandığı final mərhələsindəki digər 9 yer uğrunda 29 komanda mübarizə aparacaq. Onlardan səkkizi gələn il mayın 19-22-də birinci seçmə mərhələdə çıxış edəcək. Bu mərhələdə iki qrup qalibi və ən yaxşı ikinci yerin sahibi növbəti raunda adlayacaq.

### Kişilər arasında basketbol üzrə 23-cü Azərbaycan çempionatının birinci turunun oyunları keçirilib



Oktyabrın 31-də Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin idman zalında kişilər arasında basketbol üzrə 23-cü Azərbaycan çempionatına start verilib. Çempionatın birinci turunda AZTOP komandası "Araz"a 65:50, "Baku Oilers" klubu NTD-yə 65:52, "Bakı" BDU-ya 105:49, "Dərviş" kollektivi isə "Sıçrayış"a 69:59 hesabı ilə qalib gəlib.Çempionat dairəvi üsulla iki dövrə üzrə keçirilir. İki dövrədən sonra 4 komanda mükafatlar uğrunda mübarizə aparacaq.

### Azərbaycan cüdoçuları Əbu-Dabidə “Böyük dəbilqə” turnirində iştirak edirlər



Azərbaycanın cüdo komandası Əbu-Dabidə "Böyük dəbilqə" turnirinin birinci günündə medal qazana bilməyib. Cüdo Federasiyasından bildirilib ki, beş idmançımız tatami üzərinə çıxıb, ən yaxşı nəticəni isə səkkizdəbir finala çatmış İlqar Muşkiyev (60 kq) göstərib. Altmış kiloqramadək çəki dərəcəsində çıxış edən İlqar Müşkiyev hollandiyalı Jeron Murenə qalib gəlib, sonra isə Səudiyyə Ərəbistanının nümayəndəsi Eys Məcraşidən üstün olub. Lakin səkkizdəbir finalda həmyerlimiz monqolustanlı idmançı Soqbatar Sendoçiruya məğlub olub. Birinci görüşdə Monakodan Yan Sikkardiyə qalib gələn Vüqar Şirinli (60 kq), növbəti turda fransalı Vinsent Limareyə uduzub. Nicat Şıxəlizadə (66 kq) ikinci dövrədə rusiyalı olimpiya çempionu Arsen Qalstyana məğlub olub. Qadınlar arasında turnirdə Leyla Əliyeva (48 kq) birinci görüşdə Beynəlxalq Cüdo Federasiyasının bayrağı altında çıxış edən Şira Rişoniyə, Səkinə Zahirova isə belçikalı İlza Heylenə məğlub olub.

### Şahmatçılarımız Yunanıstanda dünya çempionatında mübarizəni davam etdirirlər




Yunanıstanın Halkidiki şəhərində keçirilən 18 yaşadək yeniyetmələr arasında şahmat üzrə dünya çempionatında beşinci turun oyunları yekunlaşıb.

Beşinci turda 8 yaşadək qızların çempionatında mübarizə aparan Azərbaycan təmsilçisi Səmra Qasımova Hindistan şahmatçısı Şri Savithaya məğlub olaraq 3,5 xalla 10-cu yerdə qərarlaşıb. Eyni yaşlı oğlanların yarışında Read Səmədov polşalı Bartoz Fiszer ilə sülh bağlayıb. O, xallarının sayını 4-ə çatdıraraq 7-ci pilləyə yüksəlib. Gövhər Beydullayeva isə 12 yaşadək qızların mübarizəsində 4 xal toplayaraq 5-14-cü yerləri bölüşdürsə də, əlavə göstəricilərə görə 7-ci yerdədir.Çempionatda 12 yaşadək oğlanların yarışında həmyerlimiz Məhəmməd Muradlı 4,5 xalla üçüncü pillədədir.

On altı yaşlı qızların çempionatında mübarizə aparan Xanım Balacayeva 4-15-ci yerləri bölüşdürür. Aytən Əmrayeva isə 3 xalla 17-ci pillədə qərarlaşıb.Turnir İsveçrə sistemi üzrə 11 turdan ibarət keçirilir.

**AZƏRTAC-ın materialları əsasında**

# Xarici hərbi xronika

### İsveçrə hərbi xərclərini artıracaq

Röyter agentliyinin verdiyi məlumata görə, İsveçrə hökuməti yaxın beş ildə hərbi xərcləri 720 milyon dollara qədər artıracaq. Müdafiə naziri Piter Xaltkvistin belə bir qərara gəlməsinin əsas səbəbini regionda qeyri-sabit vəziyyətin mövcudluğu ilə izah edib. Verilən məlumata görə, əlavə vəsait, ilk növbədə donanmanın möhkəmləndirilməsinə və Silahlı Qüvvələrin bölmələrinin Qotland adasında yerləşdirilməsinə yönəldilib. Hökumət Rusiya ilə Ukrayna arasında baş verənlərdən narahat olduğuna görə sərhədlərini qorumaq məqsədilə 70 ədəd yeni qırıcının və bir neçə sualtı qayığın alınmasını da elan edib.

### Hindistan hərbi məhsulunu 38 ölkəyə ixrac edəcək

Hindistanın Müdafiə nazirinin məlumatına istinadən Economik Times nəşri məlumat verib ki, hazırda bu ölkə öz müdafiə məhsullarının dünyanın 38 ölkəsinə ixracını nəzərdən keçirir. Həmin müdafiə məhsullarının kredit yolu ilə ixracı məsələsi də nəzərdə tutulub. Bu haqda beynəlxalq konfransda müdafiə naziri Manxara Parikkara bildirib. Onun sözlərinə görə, beynəlxalq hərbi dəniz təlimlərinin keçirilməsi də nəzərdə tutulub. Bununla ölkə öz gücünü dostluq münasibətləri qurmaq və əməkdaşlıq etməklə artırmağa can atır. Hazırda Hindistan "maken in İndia" proqramı vasitəsilə öz yerli müdafiə sənayesinin inkişaf etdirilməsini həyata keçirir.

### Aqni-III ballistik raketinin uğurlu sınağı

RİA Xəbərlər bürosunun verdiyi məlumara görə, Hindistan Odişa ştatının yaxınlığında yerləşən Uiler adasında Aqni-III ballistik raketinin sınağını həyata keçirib. İki pilləli, 48 ton ağırlığında ballistik raket avtomobil, dəmiryol buraxıcı qurğusundan buraxıla bilər. Raket üç min kilometrlik məsafəyə qədər 1,5 ton çəkisində döyüş başlığını daşımağa qadirdir.

### ABŞ bütün gəmilərini çıraqlarla təmin edəcək

ABŞ Hərbi Dəniz Qüvvələri naziri Rey Mabus yeni gəmilərdə "diosli" çıraqların quraşdırılmasına sərəncam verib. Gəmilərin daha uzun müddətli istismara və çox enerji keyfiyyətinə malik cihazlarla təmin edilməsi, göyərtədə zədələnmə hallarının azaldılması nəzərdə tutulmuş strategiyanın bir hissəsidir. Flüaresens lampalarının quraşdırılması gəmilərin uzun müddət döyüş mövqeyində qalmalarına imkan verəcək. Bu, Amerikanın milli təhlükəsizliyinin təmin edilməsi naminə atılan addımlardan biridir.

### Ən iri amfibiya-təyyarə

Bu il Çinin Çjuxaye ərazisində ən iri AĞ600 amfibiya-təyyarəsinin komplektləşdirilməsi başa çatacaq və onun ilk uçuşu 2016-cı ildə həyata keçiriləcək. Bu uçuş aparatı ölkədə və dünyada nəhəng yanfınsöndürən və xilasetmə amfibiya təyyarəsi olacaq. Onun çəkisi 53,5 tondur. 20 saniyə ərzində 12 tona qədər su doldura bilər. Bu da meşə yanğınlarını söndürməyə və digər xilasetmə əməliyyatları aparmağa imkan verir. Bundan başqa, təyyarə ehtiyac olduqda sərnişin və yükdaşımağa da qadirdir.

**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

## Əsgərin tribunası

# Vətən naminə



Vətəni qorusan adındı, qorumasan yadın. Bu kəlamı hələ orta məktəb illərində eşitmişdim. Amma bu ifadənin daha təsirli olduğunu hərbi xidmətdə olan dövrdə daha dərindən dərk etməyə başladım. Bəli, həqiqət budur ki, Vətəni qanımız, canımız bahasına qorumaq hər bir vətəndaşın müqəddəs borcudur. Vətənə məhəbbəti hər bir əsgər, döyüşçü hərbi bilikləri, təlimləri dərindən mənimsəməklə təsdiq etməlidir.

Hərbi xidmətə gəldiyim gündən vicdanla xidmət etməyi qarşıma məqsəd qoydum. Bunun üçün ilk növbədə komandirlərin aşıladığı bilik və bacarıqları yüksək səviyyədə mənimsəməliyəm. Bunsuz nümunəvi xidmətdən, Vətənə məhəbbətdən söhbət gedə bilməz. Bununla yanaşı, əsgərin fiziki hazırlığı yetərincə olmalıdı. Zamanında idmanla müntəzəm məşğul olduğumdan əsgərlik dövrümdə ciddi çətinliklərlə üzləşmədim. Əksinə, nümunəvi xidmətimlə komandirlərin etimadını qazandım. Baş leytenant Emin Əhmədovun komandiri olduğu bölmədə hərbi xidmətə başladım. Onun sayəsində tank əleyhinə silahlarla bağlı müfəssəl biliklər əldə elədim. Döyüş-atışlı təlimlərimiz tez-tez olur. Hər dəfə qazandığımız yüksək bilik və bacarıqlar təlimlərdə köməyimizə çatır. Və beləliklə, istədiyimiz nəticəni əldə edirik.

Başlıca məqsədimiz erməni işğalında qalan doğma torpaqlarımızın azad edilməsi üçün döyüş hazırlığımızı artırmaqdır. Belə ki, komandiri olduğum tank əleyhinə idarə olunan raket heyəti yüksək döyüş hazırlığına malik olduğunu dəfələrlə təlimlərdə təsdiq edib. Ötən tədris ilində heyətimiz döyüş hazırlığına görə birlik üzrə ən yaxşı heyət seçilib. Bu da gərgin fəaliyyətimizin nəticəsidir. Həm də biz bu uğurlarla kifayətlənmirik. Qarşıda daha vacib döyüş tapşırıqlarının olduğunu yaxşı bilirik. Bu səbəbdən də hazırlığımızı durmadan artırırıq.

Vətəni qorumaq müqəddəs borcumuzdur. Elan olunmamış müharibənin bitmədiyi, torpaqlarımızın yağı tapdağından azad edilmədiyi bir dövrdə hər birimiz döyüş səriştəmizi artırmalı və bu mübarizəni doğma Qarabağımız azad edilənə qədər davam etdirməliyik.

**Əsgər**
**Fariz YUSUBOV,**
**"N" hərbi hissəsi**

Baş gizir İsmayılov Faiq Əsgər oğluna verilmiş gizirin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

**Məsul katib**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, akademik
Şəfaət Mehdiyev küçəsi 144,
“Qızıl Şərq” hərbi şəhərciyi

**Növbətçi**
Rəşid HÜSEYNOV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur.
“Azərbaycan Ordusu” qəzeti kompüter mərkəzində səhifələnərək “Hərbi nəşriyyat”ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.

Lisenziya № 361
Sifariş № 857
Nüsxə 4710